# 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!

http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №22 (1554) 30 dekabr 2012 - ci il Qiyməti 20 qəpik

## Prezident İlham Əliyev Həmrəylik Günü münasibətilə dünya azərbaycanlılarını təbrik edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciət ünvanlayıb. Müraciətdə deyilir:**

**«Əziz həmvətənlər!**

**Hörmətli soydaşlar!**

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş və artıq ənənəvi bayramlarımızdan birinə çevrilmiş Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Sizi səmimi qəlbdən salamlayır, hər birinizə səadət və firavanlıq arzulayıram.

Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması və birliyinin möhkəmlənməsi, tarixi Vətənlə əlaqələrinin gücləndirilməsi diaspor quruculuğunun mühüm tərkib hissəsini təşkil edir. Hazırda dünyanın müxtəlif ölkələrindəki həmvətənlərimizin yaratdıqları qurumlar Azərbaycan hökumətinin də ardıcıl dəstəyi sayəsində daha mütəşəkkil və çevik fəaliyyət göstərirlər. Sevindirici haldır ki, yeni ideyaları və vətənpərvərliyi ilə seçilən gənclərimiz bu prosesə yaxından cəlb olunur, diasporun möhkəmlənməsinə öz töhfələrini verirlər. Cari ilin martında təsis edilmiş Dünya Azərbaycanlı Gənclər Birliyi buna bariz nümunədir...

...Əziz soydaşlar!

Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlıların doğma yurdu və güvənc yeridir. Hər bir azərbaycanlı Vətənimizin tərəqqisi, milli mənafelərimizin layiqincə qorunması üçün əlindən gələni əsirgəməməlidir. Ölkəmizin suverenliyinin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafının davam etdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, soydaşlarımızın hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin olunması kimi mühüm vəzifələrin öhdəsindən uğurla gəlmək üçün əl-ələ verməli, səylərimizi birləşdirməliyik. Buna görə də bu gün bir daha bütün dünya azərbaycanlılarını sıx birliyə və həmrəyliyə dəvət edir, milli-mənəvi dəyərlərimizin qorunması, Vətənimizin çiçəklənməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsi yolunda əzmkar fəaliyyətə səsləyirəm.

Sizi əlamətdar bayram münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayıram!»

## TEC-in yekun konfransı oldu

**Dekabrın 26-da ATU-nun Tələbə Elmi Cəmiyyəti 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilmiş «İlin ən yaxşı tələbə elmi tədqiqatçısı» adı uğrunda müsabiqə keçirdi.**



Müsabiqənin açılışında universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov giriş nitqi söyləyərək TEC-in yekun elmi konfrans keçirməsinin artıq ənənəyə çevrildiyini, müsabiqəyə ən yaxşı tədqiqat işlərinin təqdim olunduğunu vurğuladı: "Dəfələrlə demişəm, yenə də təkrar edirəm ki, tələbələrin elmi tədqiqat işinə cəlb olunması çox vacib bir məsələdir. Tələbəlik illərində onların elmi işlərə cəlb edilməsinin gələcəkdə elmi tədqiqatçı kimi formalaşmalarında mühüm rolu var. Düzdü, bu iş bütün kafedralarda eyni dərəcədə yaxşı təşkil olunmur. Ancaq bir çox kafedralarımız var ki, TEC-in işinə çox ciddi köməklik göstərirlər. Bilirsiniz ki, tələbələrimiz gələcəkdə tək həkim kimi deyil, həm də elmi tədqiqatçı kimi yetişməlidirlər. Ona görə də tələbələrdə mütləq elmi tədqiqat işləri aparmaq bacarığı olmalıdır. Proqramda nəzərdə tutulan 6 mövzuda bütün sahələr əhatə olunmayıb. Elə xəstəliklər var ki, Azərbaycan üçün xarakterikdir. Gələcəkdə mövzular seçilərkən gen terapiyası, immun terapiya, gen diaqnostikası və s. sahələr nəzərə alınmalıdır.

(davamı səh. 2-də)

# BÖYÜK ELMİ ŞURADA

**Dekabrın 24-də Böyük Elmi Şura bu ilin son yığıncağını keçirdi. Yığıncağı universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov açaraq öncə şura üzvlərinə bildirdi ki, ölkə prezidenti cənab İlham Əliyevin ad günü münasibətilə universitet ictimaiyyəti adından müraciət hazırlayıb göndərmişik. Müraciətdə möhtərəm prezidentimizin universitetimizə göstərdiyi diqqət və qayğısı xüsusi qeyd edilib və çoxsaylı kollektivimizin təbriki öz əksini tapıb. Sözünə davam edən rektor şüa diaqnostikası və şüa terapiyası kafedrasının müdiri,professor Bahadur Baxşıyevi 80, patoloji anatomiya kafedrasının müdiri, professor Ədalət Həsənovu isə 50 illik yubileyləri munasibətilə təbrik etdi. Onların hər birinin universitetimizin həyatındakı xidmətlərindən söhbət açdı.**

Bundan sonra "ATU-da 2012/2013-cü tədris ilinin qış imtahan-məqbul sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri" barədə tədris işləri üzrə prorektor, professor Sabir Əliyevin məruzəsi dinlənildi.

S.Əliyev dedi ki, keçən 4 ay ərzində universitetdə tədrisin keyfiyyətinin metodiki cəhətdən yenidən qurulması üçün xeyli iş görülmüşdür. Bu əsasən maddi-texniki bazanın günbəgün yeniləşməsinə, professor-müəllim heyətinin istər ixtisas, istərsə də pedaqoji cəhətdən təkmilləşdirilməsinə, tədrisin yeni innovativ və interaktiv şəkildə aparılmasına, müasir elmi-tədqiqat işləri nəticəsində əldə olunan nəticələrin tədrisə tətbiqinə, universitet klinikalarında aparılan diaqnostik və müalicə işlərinə tələbələrin, magistr, rezident və doktorantların daha yaxından cəlb olunmasına, yeni dərslik, dərs vəsaiti və metodiki vəsaitin hazırlanmasına və çapına, professor-müəllim heyətinin və tələbələrin sosial həyatının yaxşılaşdırılmasına və s. yönəlmişdir.

Sözünə davam edən natiq bilidirdi ki, Azərbaycan Respublikası Boloniya bəyannaməsini imzaladıqdan sonra Avropa təhsil sisteminə inteqrasiya etmək məqsədilə istər ölkədə, istərsə də universitetdə xeyli əməli tədbirlər həyata keçirilmişdir. Təhsil bütün fakültələrdə kredit sistemi ilə aparılır - əczaçılıq, tibbi-biologiya, tibbi-profilaktika ixtisaslarının bütün kurslarında, stomatologiyanın I-IV kurslarında, müalicə-profilaktika və hərbi tibb fakültələrinin I-III kurslarında, pediatriya fakültəsinin III kursunda, magistraturanın I kursunda və qiymətləndirmə çoxballı - 100 ballı sistemlə aparılır. Klassik üsulla təhsil müalicə-profilaktika, pediatriya, hərbi tibb fakültəsinin IV-VI kurslarında, stomatologiyanın V kursunda, hərbi feldşer məktəbində və magistraturanın II kursunda davam etdirilir.

I kursda təhsillərini başa vuran rezidentlər - 139 nəfər cari attestasiyadan müvəffəqiyyətlə keçmiş və təhsillərini davam etdirirlər. 6 nəfər müxtəlif səbəbdən rezidenturadan xaric olunmuş, 3 nəfər akademik məzuniyyətə getmişdir. Attestasiya ilk dəfə keçirildiyinə görə bəzi çatışmamazlıqlar özünü göstərmişdir. Belə ki, bəzi rezidentlərin fərdi iş planlarının və gündəliklərinin tərtibatında kafedraların yaxından köməyi olmamış, kuratorların nəzarəti kifayət qədər olmamışdır. Bu ilki I kurslara 143 nəfər rezident qəbul olmuş, onlardan 1 nəfər xaric olmuş və 2 nəfər akademik məzuniyyətdədir. Rezidentlər rotasiyaların çox olmasından, kifayət qədər xəstə kurasiya etməmələrindən, kuratorların onların hazırlığına kifayət qədər vaxt ayırmamalarından rezidentura şöbəsinə şikayətlə müraciət edirlər.

Məruzəçi qeyd etdi ki, diplomdansonrakı rezidenturada mütəxəssis hazırlığı istər ölkə, istərsə də universitetimiz üçün yeni, çətin bir işdir. Lakin təhsilin bu pilləsində tədrisə 2-ci dərəcəli bir iş kimi baxmaq olmaz. Çünki rezidentura təhsilindən sonra məzunlarımız sərbəst həkim kimi fəaliyyət göstərəcəklər. Nəzərə alsaq ki, rezidenturada təhsil respublikanın 20-dən çox təhsil və tibb müəssisələrində aparılır və bunların içərisində Azərbaycan Tibb Universiteti özünəməxsus - istər professor-müəllim heyətinin keyfiyyətinə, istərsə də maddi-texniki baza cəhətdən, müsbət mənada, çox fərqlənir, bu rəqabətdən alnı açıq çıxmalıyıq. Ölkəmizdə mütəxəssis hazırlığının səviyyəsinə nəzarət və yekun qiymətləndirmə imtahan-məqbul sessiyası dövründə aparıldığından, o nəinki universitet rəhbərliyi tərəfindən, həmçinin ölkə ictimaiyyəti və mətbuatı tərəfindən də diqqət mərkəzində saxlanılır.



Universitet üzrə cari tədris ilinin keçən 3 ayı ərzində xəstəliklə əlaqədar çox dərs buraxan 11 tələbə akademik məzuniyyətə göndərilmişdir. Üzrsüz dərsburaxmaya və akademik borcunu ləğv edə bilmədiyinə görə 3 nəfər Azərbaycan-vətəndaşı, 28 xarici ölkə vətəndaşı universitetdən xaric edilmişdir.

Universitet üzrə tədris planına uyğun olaraq imtahan-məqbul şəbəkəsi hazırlanmış, rektoryanı şurada müzakirə edilmiş və rektor

(davamı səh. 2-də)

**Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi Universitetin bütün əməkdaşlarını, o cümlədən professor-müəllim heyətini və tələbələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirlər!**

# "Siz öz vətəninizdə, doğma torpağınızda yaşayırsınız"

31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günündən söhbət düşən hər bir məqam Heydər Əliyev adıyla sıx bağlıdır. Heydər Əliyevin Azərbaycan diasporunun formalaşması, təşkilatlanması və gələcək inkişafındakı rolunun əsas istiqamətləri haqqında təəssüratlarımızı bu bayram ərəfəsində oxucularımızla bölüşmək, ulu öndərin misilsiz xidmətlərini yada salmaq niyyətimizi gerçəkləşdirmək fikrinə düşdük.

Müstəqilliyin elə ilk aylarından, elə ilk illərindən Heydər Əliyev diasporla iş məsələlərinə ciddi önəm verir. Müstəqilliyin ilk illərində Azərbaycan diasporunun formalaşması yolunda Heydər Əliyev xidmətləri əvəzsizdir. Bu gün bütün dünyada təşəkkül tapan Azərbaycan diasporu yaranması üçün Heydər Əliyev siyasətinə borcludur. Xaricdə yaşayan soydaşlarımızla bağlı siyasi lüğətimizə " lobbi", " diaspor" anlayışlarını da ilk dəfə ulu öndər gətirir: " Bəzən azərbaycanlılar öz aralarında danışarkən fikirləşirlər ki, bizim də ermənilərinki kimi lobbimiz olsaydı, başqa ölkələrdə bizim də diasporumuz olsaydı, şübhəsiz, onlar da bizdən ötrü çox iş görərdi. Bu həqiqətdir".

Xaricdəki soydaşlarımızla etdiyi səmimi söhbətlərdə onlara Azərbaycanla daim əlaqə saxlamağı tövsiyə edir. Hər bir soydaşımızı " azərbaycanlı olduğunu unutmamağa ", " hamımızın ümumi vətəni olan Azərbaycana" kömək göstərməyə çağırır: 11 oktyabr 1997-ci ildə Strasburqda soydaşımız professor İren Məlikova ilə görüşdə bu fikirlər öz əksini tapır: "İren xanım, səmimi söhbətinizə və Azərbaycanla yaxından əlaqə saxladığımıza görə təşəkkür edirəm. Arzu edirəm ki, nəinki Strasburqda, həm də bütün Fransada yaşayan soydaşlarımız Azərbaycanla əlaqəni daim gücləndirsinlər. Bunu mütləq bilməli və dərindən dərk etməliyik ki, haradan gəlməsindən asılı olamayaraq, xaricdə yaşayan hər bir soydaşımız azərbaycanlı olduğunu unutmamalı, hamımızın Azərbaycan Respublikasına köməyini göstərməlidir".

Ukraynada yaşayan azərbaycanlılarla görüşdə biz Heydər Əliyevi övladalarına üz tutub xahiş edən bir ağsaqqal kimi görürük. Öncə poetik bir dillə " gərək nəbzin vətənin nəbzi ilə vursun " ifadəsi, onu arxasınca qətiyyətli dövlət başçısına xas olan " bu vətənpərvərlik hissi bizim hər birimizdə olmalıdır" qətiyyətli ifadəsi işə düşür, xaricdə yaşayan azərbaycanlılar auditoriyası səfərbər olunur: " Ancaq sizdən bir xahişim vardır: Harada yaşamasından asılı olamayaraq heç bir azərbaycanlı öz vətənini, ulu babalarını, dilini unutmamalıdır. Harada yaşayırsansa-yaşa, yaxşı da, pis də, gərək ürəyin öz vətəninlə, torpağınla döyünsün. Gərək nəbzin vətənin nəbzi ilə vursun. Bu vətənpərvərlik hissi bizim hər birimizdə olmalıdır. O cümlədən, respublikamızdan kənarda, Ukraynada yaşayan azərbaycanlılarda da olmalıdır".

Ulu öndər diaspor təşkilatları ilə bağlı narahatçılığını dilə gətirir, təşkilatdaxili demokratiyanı qəbul edir, bir-birinə "zidd" hərəkətləri isə lazımsız hesab edir, öz aralarında səmimiyyətə, dostluğa, mehriban olmağa, bir-birinə kömək etməyə çağırır: "Güman edirəm ki, mənim bu sözlərimdən hərə özü üçün nə lazımdırsa götürəcəkdir. Ancaq bir şey məni narahat edir ki, ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar bəzən parçalanırlar. Burada dediniz ki, iki təşkilat yaratmısınız, biri assosiasiyadır, o birisi kültür dərnəyidir. Bu, ola bilər, şübhəsiz mən demirəm ki, hamı bir təşkilat olsun. Ancaq bu təşkilatlar eyni istiqamətdə işləyirlərsə, bir-biri ilə dostdurlarsa, qoy olsun. Yaxud kiçik bir yerdə bir təşkilat digəri ilə rəqabət aparırsa, ya da bəzən bir-birinə zidd gedirsə bu, lazım deyildir. Kənardan bizə olan mənfi hərəkətlər kifayətdir, lazım deyildir. Öz aramızda səmimi, dost, mehriban olmalıyıq, bir-birimizə kömək etməliyik, bir-birimizin qayğısına qalmalıyıq. Bu, "Qurani-Şərifin" bizə verdiyi nəsihətlərdir, xalqımızın, millətimizin əsrlər boyu, tarixdən gələn əməlləridir, azərbaycanlıların ən yüksək keyfiyyətləri, xüsusiyyətləridir. Bunları itirmək lazım deyildir, əksinə özündə toplamalı və başqalarına da çatdırmalıdır ki, hamımız bir olaq".

Diaspor təşkilatların gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini söyləyən ulu öndərin proqnozlarını digər sahələrdəki proqnozları kimi həyat doğruldur. Ölkə rəhbərliyinin diaspor təşkilatları ilə bağlı apardığı məqsədyönlü, doğru, düzgün siyasət bunu bir daha təsdiq edir.

Ulu öndər diasporla tarixən məskunlaşmış əhalinin fərqini yüksək siyasi fəhmlə xalqa çatdırır. Gürcüstan ərazisindəki " azərbaycanlıları diaspor adlandırmaq olmaz" deyimi ilə Heydər Əliyev Borçalı diyarı və digər diyarlarımızda məskunlaşan azərbaycanlıları öz tarixi ərazilərimizdə möhkəm durmağa , öz tarixi haqlarının bərpası yolunda monolit birliyə səsləyir. Və öz fikirlərində tək olmadığını, bu işdə Gürcüstan prezidenti Eduard Şevardnadzenin də ona dəstək olmasını qeyd edir: " Borçalı diyarı Gürcüstan üçün doğma olduğu kimi Azərbaycan üçün də əziz olmuşdur, bu gün də əzizdir. Ona görə də Gürcüstanda yaşayan azərbaycanlılar öz vətənlərində yaşayırlar. Mənim dostum cənab Şevardnadze bu gün çıxış edərkən dedi ki, Gürcüstanda yaşayan azərbaycanlılara o, diaspor demək istəmir. Tamamilə düzgün deyir, heç diaspor demək olmaz. Çünki bu kənardan gəlmiş azərbaycanlılar deyil ki, onlara diaspor deyək. Onlar burada əsrlər boyu yaşamış, yaratmış azərbaycanlılardır. Ona görə də, əziz bacılar, qardaşlar bu sizin doğma vətəninizdir. Bu, sizin doğma torpağınızdır. Siz öz vətəninizdə, doğma torpağınızda yaşayırsınız".

Ölkəmizin qüdrətinin getdikcə güclənəcəyini də, diaspor təşkilatların daha da mütəşəkkil olacağını da Heydər Əliyev qabaqcadan proqnozlaşdırır: " Ölkəmiz, dövlətimiz möhkəmləndikcə, gücləndikcə, inkişaf etdikcə, imkanlarımız artdıqca biz Azərbaycandan kənarda yaşayan soydaşlarımızla əlaqələri daha da genişləndirəcəyik və bu qayğını da, yardımı da artıracağıq. Ancaq respublikamızda yaşayan azərbaycanlıların vəziyyəti indi hələ ki, çox ağırdır".

Heydər Əliyev dünyadakı bütün azərbaycanlıların qayğısını çəkir, bir prezident kimi soydaşlarımızın taleyi üçün özünü məsul, cavabdeh hesab edir. Onların dünya ölkələrinə " səpələnməsini" təbii qəbul edir, bunun köklərini diaspor nümayəndələri qarşısında açıqlayır: "Bilirsiniz, Azərbaycan müstəqil dövlət olandan sonra biz dünyada olan bütün azərbaycanlıların qayğısını çəkirik. Ona görə də biz 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişik. Keçmişdə belə olub ki, azərbaycanlılar dünyanın çox ölkələrinə səpələniblər. Təbii olaraq bəziləri özləri gediblər, bir çoxlarını həyat məcbur edib, bəzilərini isə Sovet hakimiyyəti dövründə sürgün ediblər. İndi hərə bir yerdə özünə məskən tapıb, yaşayır. Çoxları özünə yaxşı həyat qurub, təhsil alıb, ailə qurublar. Bu, bizi çox sevindirir. Azərbaycan prezidenti kimi, mən dünyanın hər bir yerində yaşayan azərbaycanlıları soydaşlarımız və onlara görə özümü cavabdeh hesab edirəm. Doğrudur, mən bütün azərbaycanlıların hamısını əhatə edə bilmərəm. Amma azərbaycanlıların bir müstəqil ölkəsi, dövləti var, o da Azərbaycan Respublikasıdır".

Diaspor məsələləri ilə bağlı Heydər Əliyev ideyaları gələcəkdə araşdırılmaq baxımından çox aktualdır. Sonda bu böyük bayram- 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə başda hörmətli rektorumuz, millət vəkili, akademik Əhliman Əmiraslanov olmaqla ATU -nun professor-müəllim və tələbə heyətini ürəkdən təbrik edirəm.

**Nağdəli ZAMANOV,**
*I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı*

# BÖYÜK ELMİ ŞURADA

(əvvəli səh. 1-də)

tərəfindən təsdiq edilmişdir. Qış imtahan sessiyasının cədvəlləri müvafiq təlimata uyğun tərtib edilmiş, imtahanlara bir aydan da artıq vaxtda dekanlıqlara, kafedralara verilmiş və tələbələrin nəzərinə çatdırılmışdır.

Ali təhsil sistemində yalnız bizim universitetdə olan və artıq ənənə şəklini almış və bütün fakültələrdə kurslar üzrə cari ilin qış imtahan-məqbul sessiyasına hazırlığın vəziyyətini təhlil etmək, nöqsanları aradan qaldırmaq, kredit sistemi ilə təhsil alan tələbələrin 8 həftəlik təhsilini yekununu təhlil etmək məqsədilə professor-müəllim heyəti və tələbələrlə birgə keçirilən istehsalat müşavirələri və oradakı aparılan müzakirələrin üzərində dayanan S.Əliyev qeyd etdi ki, həmin müşavirələr cari tədris ilində 27 noyabr - 18 dekabrda aparılmışdır.

Bu müşavirələrdə tələbələr ən çox bir sıra kafedralarda dərsliklərin məcburi satışından, bəzi fənnlər üzrə Azərbaycan dilində dərsliklərin olmamasından, klinik kafedralarda xəstələrin az nümayiş etdirilməsindən, kredit sistemində təhsil alan tələbələrin bəzi müəllimlər tərəfindən düzgün qiymətləndirilməməsindən - balların aşağı yazılmasından və yüksək balların yalnız kafedra müdirinin icazəsi ilə yazılmasından, ev tapşırıqlarının çoxluğundan, böyük referat şəklində verilməsi və qəbulunda tələbələrin get-gələ salmalarından, praktik vərdişlərin mükəmməl öyrədilməməsindən, sərbəst tapşırıqların tələbələrə gec verilməsindən, bir sıra kafedraların bəzi müəllimləri 8 və 15 həftəlik qiymətləndirmə cədvəllərində tələbələrin qiymətini fiksə etmədən boş cədvələ tələbələrə imza atmalarından şikayət etdilər.

Müşavirədə iştirak edən universitet rəhbərliyi, dekanlar və kafedra müdirləri qaldırılan məsələlərin bir çoxuna aydınlıq gətirdilər, bir qrup məsələlər yerində həll olundu.

Universitetin rektoru çox hörmətli akademik Ə.Əmiraslanov

müzakirələr başlandı. Kafedra müdirlərindən professorlar Vaqif Şadlinski, Arif Əfəndiyev, Rafiq Çobanov, İbrahim İsayev və Tahir Süleymanov hesabatı qənaətbəxş qiymətləndirərək qış imtahan-məqbul sessiya-



hər sessiyadan əvvəl imtahan götürən bütün müəllimlərlə ənənəvi görüşlər keçirir. Belə bir görüş kredit sistemi ilə tədris aparan kafedra müdirləri ilə bir ay bundan əvvəl keçirilmiş, cari mənimsəmənin və imtahanların aparılması geniş müzakirə obyektinə çevrilmişdir. Müzakirələrin nəticəsi olaraq kompyuter vasitəsilə aparılan test imtahanlarına aid «Qaydalar»da bəzi dəyişiklikələr qəbul olunmuşdur. İmtahana düşən test tapşırıqlarının sayı 50-yə çatdırılmış, 4 səhv sual 1 düzgün sualı ləğv etməsi qəbul olunmuş (və ya hər bir səhv sual mənfi 0,16 balla qiymətləndirilir), fundamental və ixtisas fənlərindən sualların 25%-i gizli saxlanılır.

S.Əliyev çıxışını yekunlaşdıraraq qeyd etdi ki, bəzi nöqsan və çatışmazlıqları nəzərə almasaq tədris hissəsi, dekanlıqlar və kafedralar bu çətin və məsul prosesin aparılmasına tam hazırdır.

Sonra məruzə ətrafında

sına hazırlığın vəziyyətini təhlil etdilər. Natiqlər həllini gözləyən problemlərdən danışaraq öz təkliflərini irəli sürdülər.

Ə.Əmiraslanov müzakirələrə yekun vuraraq səslənən fikirlərə münasibətini açıqladı. Bildirdi ki, tələbələrlə xüsusi iş aparılmalı, test imtahanlarında onlara sərbəstlik verilməlidir. Artıq bütün fakültələrdə tətbiqinə başlanılan kredit sisteminin keyfiyyət göstəricilərinə təsirsiz ötüşməyəcəyini, qış imtahan-məqbul sessiyasının ötən il olduğu kimi bu il də müvəffəqiyyətlə keçməsi üçün professor-müəllim heyətinin əzmlə çalışacağına əminliyini vurğuladı.

Müxtəlif məsələlərdən bəhs edən rektor əsas diqqəti imtahanların gedişində yaranan problemlərə yönəltdi, imtahan götürən müəllimləri universitetin şərəfini qorumağa çağırdı.

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini sona çatdırdı.

**MƏNSUR**

# TEC-in yekun konfransı oldu

(əvvəli səh. 1-də)

Möhtərəm prezidentimiz elmin inkişafı üçün ciddi qayğı göstərir. Prezident yanında "Elmin inkişaf fondu" təşkil olunub. Gənc tədqiqatçılar üçün də ayrıca qrantlar ayrılıb. Tələbələrimiz yüksək elmi işlərini fonda təqdim edib müəyyən vəsait əldə


Fotolar Cənnətalı Çingizindir

edə bilərlər. Məni sevindirən bir cəhət də odur ki, TEC-in fəaliyyəti təkcə universitetimizlə məhdudlaşmır. Respublikamızın, xarici ölkələrin tədqiqat mərkəzləri ilə sıx əlaqələr mövcuddur".

Əhliman Əmiraslanov Amalya Əyyubovanın fəaliyyətini də yüksək qiymətləndirərək tədbir iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etdi, konfransın işinə uğurlar dilədi.

Sonra TETİ-nin rəhbəri, professor A.Əyyubova reqlamenti elan edərək sözü tədqiqatçı tələbələrə verdi.

*Zəminə Zeynalova (II müalicə-profilaktika fakültəsi, IV kurs, qrup 207[a], elmi rəhbər t.e.d Ə.Sadiqov, daxili xəstəliklərin propedevtikası kafedrası), Şahanə Fərhadlı (I müalicə-profilaktika fakültəsi, VI kurs, qrup 78[b], elmi rəhbər assistent S.Quliyeva, oftalmologiya kafedrası), Nərmin Bağırova (pediatriya fakültəsi, IV kurs, qrup 430[a], elmi rəhbər assistent N.Hacıyeva, psixiatriya kafedrası), Valeh Rüstəmov (stomatologiya fakültəsi, V kurs, qrup 743[b], elmi rəhbər dosent Z.Novruzov, uşaq stomatologiyası kafedrası), Həlimə Şıxməmmədova (əczaçılıq fakültəsi, III kurs, qrup 888, elmi rəhbər professor R.Axundov, farmakologiya kafedrası) və Nuranə Muradovanın (tibbi-profilaktika fakültəsi, V kurs, qrup 661[a], elmi rəhbər dosentlər N.Süleymanzadə və S.Həsənova, uşaq, yeniyetmələr və əmək gigiyenası kafedrası)* müasir təbabətin aktual sahələrinə dair məruzələri maraqla dinlənildi.

Məruzələrə münasibət bildirən professorlar İbadulla Ağayev, Əlihüseyn Hidayətov və dosent Səfa Bağırova tədqiqatçı tələbələrə öz tövsiyələrini verdilər.

Hər məruzə münsiflər heyətinin üzvləri tərəfindən fərdi qaydada qiymətləndirildi. Sonra tədqiqatçı tələbələrin ayrı-ayrılıqda topladıqları yekun ballar müəyyənləşdirildi.

Fərqlənən tələbələrə diplomlar və hədiyyələr təqdim edildi.

**Arif MƏMMƏDLİ**

# Amerikalı alim şəkərli diabetdən danışmışdır

◆ **Dekabrın 17-də Tədris Terapevtik Klinikada əslən Cənubi Azərbaycandan olub hal-hazırda Amerika Birləşmiş Ştatlarında yaşayan və Kaliforniya Diabet Tibb Mərkəzinin rəhbəri vəzifəsində çalışan professor Qulamrza bəy Bonabi şəkərli diabetlə bağlı geniş mühazirə oxumuşdur.**





Azərbaycan Tibb Universitetinin xarici əlaqələr üzrə prorektoru, professor Məmməd Nəsirov qonağı təqdim edərək Türkiyədən, Amerikadan, Almaniyadan, Fransadan, Kanadadan və digər ölkələrdən universitetimizə tez-tez tanınmış alimlərin dəvət olunduğunu, professor Surxay Musayevin rəhbərlik etdiyi Tədris Terapevtik Klinika fəaliyyətə başlayandan bəri belə dəvətlərin daha da intensivləşdiyini diqqətə çatdırmışdır.

Qulamrza bəy Bonabi dəvət və təqdimat üçün təşəkkürünü bildirdikdən sonra dünyada sürətlə artan şəkərli diabet xəstəliyinin ən müasir müayinə və müalicə üsullarından danışmışdır.

Şəkərli diabeti sunamiyə bənzədən professor qeyd etmişdir ki, hələ 12 il əvvəl yer üzündə 2025-ci ildə 300 milyon diabet xəstəsinin olacağı proqnozlaşdırılırdı. Ancaq 2012-ci ildə diabet xəstələrinin sayı 360 milyondur. Görünən odur ki, 2025-ci ildə belə xəstələrin sayı 400 milyonu ötəcək.

Elmə məlumdur ki, şəkərli diabet endokrin sisteminin xəstəliyi olub, tam və ya nisbi insulin çatmamazlığı nəticəsində qanda qlükozanın xroniki artımı ilə müşahidə olunur. Diabetdə karbohidratların, zülalların və yağların mübadiləsi pozulur.

Diabet, xroniki insulin çatışmamazlığından əmələ gəlir. Mədəaltı vəzin insulin hormonu orqanizmdə karbohidrat, zülal və yağ mübadiləsində iştirak edir. Karbohidrad mübadiləsinə insulin, qlükozanın orqanizmin hüceyrələrinə daxil olması ilə, qlükozanın orqanizmdə alternativ sintezini aktivləşdirməklə, qara ciyərdə şəkərin ehtiyatlarını artırması ilə və qlükoqen sintezi ilə tə'sir edir.

2-ci tip şəkərli diabetin əmələ gəlməsi səbəblərinə toxunan Qulamrza bəy bildirmişdir ki, irsi meyillik vacib rol oynasa da, mühüm əhəmiyyət kəsb edən xarici faktorlardır. I tip autoimmun şəkərli diabet immun sisteminin pozğunluğu nəticəsində yaranır, I tip idiopatik şəkərli diabetin səbəbləri isə məlum deyil.

Hər dəfə yeni dərman preparatları, texnologiyalar istifadəyə veriləndə bizə elə gəlirdi ki, artıq şəkərli diabet öz aktuallığını itirib. Təəsüf ki, tibb elmi bu xəstəliyi törədən bütün səbəbləri müəyyənləşdirməyib və diabetlə mübarizədə son məqsədinə çatmayıb.

**Qəmər ƏLİQIZI**

# "Absorb - özüsorulan tac-damar stent skaffoldu (BVS)" mövzusunda konfrans oldu

◆ **Dekabrın 19-da ATU-nun Tədris Terapevtik Klinikasında "Absorb - özüsorulan tac-damar stent skaffoldu (BVS)" mövzusunda konfrans oldu. Azərbaycan Tibb Universiteti və Abbott Vascular şirkətinin (ABŞ) təşkilatçılığı ilə keçirilən foruma aparıcı invaziv cərrahlar, Azərbaycan Kardioloqlar Assosiasiyasının üzvləri və rezidentlər qatılmışlar.**



Tədbiri açan klinikanın direktoru, professor Surxay Musayev qeyd etdi ki, Azərbaycanın intensiv sosial-iqtisadi inkişafı bütün səhiyyə sisteminin önəmli dərəcədə tərəqqisinə və ən müasir texnologiyaların tətbiqinə şərait yaradır, bu sahədə əhəmiyyətli irəliləyişlərə xüsusi stimul verir. Müxtəlif beynəlxalq konfrans və simpoziumlara ev sahibliyi edən Azərbaycan Tibb Universitetində tanınmış alimlərin məruzələrini dinləmək və onların təcrübəsindən yararlanmağın artıq ənənəyə çevrildiyini diqqətinə çatdıran professor aktuallığı ilə seçilən bu mövzuda dinləmələrin də maraqla qarşılanacağını vurğuladı.

Konfransda ürək-damar texnologiyalarının işlənib hazırlanması sahəsindəki dünya lideri "Abbott Vascular"-ın yeni məhsulu təqdim edilmişdir. Bölgə əlaqələndiricisi professor Nihad Advaçiç (Avstriya) və professor Orazbek Saxov (Qazaxıstan) Absorbu - dünyadakı ilk özüsorulan tac-damar stentini təqdim etdilər. Absorb - keçiriciliyin bərpası üçün təbii resorbsiya edilən (fasiləsiz sorulan), tam metabolizə edilə bilən ürəkqidalandırıcı materialdan olan stentdir. Absorbun unikallığı onunla bağlıdır ki, o, implantlarda geniş istifadə edilən təbii həll olunan materialdan hazırlanır. Hazırda bu texnologiya bir müddət keçdikdən sonra tam olaraq əriyib gedən qan damarı təklif və tövsiyə edir. Beləliklə, damarda normal qan axınının tam bərpası baş verir. Bu texnologiya dünyanın 20 aparıcı ölkəsində artıq öz tətbiqini tapmışdır.

Sonrakı gün AR SN Diaqnostika Mərkəzində Azərbaycanda ilk dəfə olaraq Absorb texnologiyası istifadə edilməklə əməliyyat aparılmışdır.

**A.KAMRANOĞLU**

# ATU-nun əməkdaşları Saatlı Rayon Mərkəzi Xəstəxanasına ezam olunmuşlar

◆ **Saatlı Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Ələkbər Əkbərov 28 noyabr 2012-ci il tarixində ATU-nun rektoru, millət vəkili, akademik Ə.Əmiraslanova məktubla müraciət etmişdir. Müraciətdə deyilir:**

"Hörmətli Əhliman müəllim!

Rayonumuzun bütün sakinlərinə tam aydındır ki, Saatlı rayonunda Mərkəzi Xəstəxananın az müddət ərzində əsaslı təmir edilməsi, xəstəxananın dünyanın inkişaf etmiş ölkələrində istehsal olunmuş müasir tibbi avadanlıqlarla təchiz edilməsi ölkə Prezidenti cənab İlham Əliyevin rayon əhalisinə göstərdiyi böyük qayğının təzahürüdür.

Xəstəxananın tam istifadəyə verilməsi üçün son tamamlama işləri görülməkdədir. Belə ki, aidi otaqlar hazırlanmış, müasir tibbi avadanlıqlarla təchiz edilmişdir.

Laboratoriya şöbəsinə verilmiş hematoloji və biokimyəvi analizatorları işlətmək üçün Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında işləyən Laboratoriya şöbəsinin mütəxəssislərinin rayonumuza ezam olunmasına və Saatlı MRX-nin Laboratoriya şöbəsinin müdiri, həkim-laborant Elçin Hacıyevin həmin bazada təcrübə keçməsinə göstəriş verməyinizi Sizdən xahiş edirik."

ATU-nun rektoru, millət vəkili, akademik Ə.Əmiraslanov müraciətə cavab olaraq Tədris Terapevtik Klinikanın Mərkəzi Laboratoriyasının müdiri, t.ü.f.d. Ramin Bayramlı və laboratoriyanın həkimi Yavər Hacıyevin 15-16 dekabr 2012-ci il tarixləri arasında Saatlı rayonuna ezam olunmaları barədə tapşırıq vermişdir.

Tədris Terapevtik Klinikanın rayona ezam olunmuş əməkdaşları Mərkəzi rayon Xəstəxanasının Laboratoriya şöbəsinin həkim və laborant heyətinə burada quraşdırılmış müasir cihaz və avadanlıqlara, onların iş prinsiplərinə dair lazımi nəzəri və təcrübi məlumatlar vermişlər. Xəstəxana rəhbərliyinə və həkimlərinə müasir tibbi diaqnostikada biokimyəvi,



mikrobioloji, immunoloji və hematoloji laboratoriyaların roluna dair müasir məlumatlar verilmişdir. Laboratoriyanın adı çəkilən ayrı-ayrı bölmələrinin müasir standartlara uyğun fəaliyyət göstərməsi üçün tövsiyələr verilmiş, müvafiq iş planı tərtib olunmuşdur. Bu çərçivədə rayon xəstəxanasının laboratoriya şöbəsində çalışan mütəxəssislərin Tədris Terapevtik Klinikanın Mərkəzi Laboratoriyasında təcrübi kurs keçmələri də planlaşdırılmış, ATU-nun xəstəxananın işinə daim dəstək verməyə hazır olduğu bildirilmişdir.

TTK əməkdaşlarının gəlişindən məmnuniyyətini ifadə edən xəstəxana rəhbərliyi ATU-nun rektoru, millət vəkili, akademik Ə.Əmiraslanova göstərdiyi diqqət və qayğıdan dolayı dərin minnətdarlıqlarını bildirmişlər.

**Yavər HACIYEV,**
*Mikrobiologiya və immunologiya kafedrasının əməkdaşı*

# ƏNƏNƏNİ YAŞADANLAR

❍ **Son dövr universitetimizdə aparılan təmir- tikinti işləri tədrisin keyfiyyətinin yüksəlməsində də müsbət təsirini göstərir.**

Bütün kafedralarda həyata keçirilən bu proses operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasından da yan keçməmişdir. Burada fənn kabinələri müasir görkəmə salınmış, tələbələrin yaxşı təhsil alması, o cümlədən əməkdaşların işləməsi üçün rahat şərait yaradılmışdır.



Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan elm, mədəniyyət və ədəbiyyat adamlarının əməyinə verilən qiymət bu gün də tibb universitetində bir ənənə halını almışdır. Bu ənənənin davamı olaraq kafedranın əməkdaşları ömrünün yarısından çoxunu gənc həkimlərin yetişdirilməsinə həsr etmiş qocaman alim, kafedramızın dosenti Eldar İsmayılovun təqaüdə getməsini təmtəraqla qeyd etdi.

Tədbirdə çıxış edən kafedranın müdiri, professor Loğman Məmmədov universitetimizin günü- gündən gözəlləşdiyini, klinikalarımızın sayının ilbəil artdığını, təhsilimizin Avropa standartlarına uyğun inkişaf etdiyini dedi və bütün bu nailiyyətləri hörmətli rektorumuz, millət vəkili, akademik Əhliman Əmiraslanovun gərgin əməyinin nəticəsi kimi dəyərləndirdi. Kollektivin hədiyyəsini Eldar müəllimə təqdim edən L.Məmmədov bildirdi ki, Eldar müəllim özünəməxsus xüsusiyyətə malik bir əməkdaş kimi uzun illərdi bu kafedrada çalışır.

O, həmişə üzərinə düşən işi lazımınca yerinə yetirib. Lakin indi çox yorulub. Gedib bundan sonra qalan ömrünü mənalı istirahətdə keçirsin və gərgin zəhmətinin dadını çıxarsın. Əlbəttə, Eldar müəllim bizim xatirimizdə xeyirxah insan kimi qalacaq deyən L.Məmmədov vürsətdən istifadə edib kollektivi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etdi.

Tədbirdə söz alan Eldar İsmayılov ona göstərilən bu hörmət və diqqətə görə universitetin retoru, akademik Ə.Əmiraslanova, kafedranın müdiri L.Məmmədova və eləcə də doğma kollektivə minnətdarlığını bildirdi.

**M.QOBUSTANLI**

# Stomatologiya fakültəsinin tələbələri arasında "Plomb materialı ilə restavrasiya" üzrə çempionat keçirilmişdir

**◆ Dekabrın 18-də ATU-nun Stomatoloji Klinikasında respublikamızda ilk dəfə olaraq stomatologiya fakültəsinin yuxarı kurs tələbələri arasında "Plomb materialı ilə restavrasiya" üzrə çempionat keçirilmişdir.**





Bu çempionatda iştirak etmək üçün universitetimizin 21 tələbəsi (8 nəfəri V, 11 nəfəri IV, 2 nəfəri isə III kurs tələbəsi olmaqla) öz arzusu ilə təşəbbüs göstərmişdir. Bu, hələlik seçim turu idi. Növbəti mərhələ stomatoloji klinikanın tərkibində fəaliyyət göstərən kafedraların ən təcrübəli və peşəkar müəllimlərdən ibarət 7 nəfərlik ekspert qrupu tərəfindən tələbələrin işlərini fərdi şəkildə qiymətləndirmiş və gizli olaraq səs vermişlər.

Sonuncu növbəti mərhələ isə klinik mərhələ adlanır ki, bu mərhələyə 9 nəfər buraxılmışdır. Həmin tələbələr qaydalara əsasən sərbəst olaraq kariesli xəstələri plombla müalicə edəcək və komissiya tərəfindən qiymətləndirilərək qalib təyin olunacaq.

Birinci yeri tutan həmin qalib tələbə Fransada stomatologiya fakültələrinin tələbələri arasında keçirilən Beynəlxalq çempionatda iştirak edəcək.

Ölkəmizdə ilk dəfə "Plomb materialı ilə restavrasiya" üzrə keçirilən bu çempionatı fakültədə aparılan tədrisin keyfiyyətinin göstəricisi kimi qiymətləndirmək olar.

Çempionatın nəticələrinə görə fakültənin IV kurs tələbələri Hüseyn Allahverdiyev, Fuad Babayev və V kurs tələbəsi Valeh Rüstəmov birinci, V kurs tələbələri Nizam Abdullayev, Cavad Bəxtiyarlı və IV kurs tələbəsi Samir İmaməliyev ikinci, V kurs tələbələri İsa Cəfərli, Toğrul Abdullayev və IV kurs tələbəsi Münəvvər Əliyeva isə üçüncü yerə çıxmışlar.

**M.ƏLƏKBƏROV**

## Müdriklər demişlər

*Tarlada buğdam var demə,*
*Ambara girməyincə.*
*Xeyirli övladım var demə,*
*əl qoynuna girməyincə.*
*Vəfalı yarım var demə,*
*Pis güzəran görməyincə.*
*İstəkli qardaşım var demə,*
*Mirası bölməyincə.*
*Vəfalı dostum var demə,*
*Çətin günlər görməyincə.*


T. C.
YÜKSEKÖĞRETİM KURULU BAŞKANLIĞI
DİPLOMA DENKLİK BELGESİ
19.11.2012 - 50147
Sayı : B.30.0.DEN.0.00.00.01 - 14967
Tarih :
Paria Assadishayan'ın
Azerbaycan'daki Azerbaycan Tıp Üniversitesi'nin
Tıp Doktorluğu
programını başarıyla tamamlayarak bu alanda
Lisansa
eşdeğer öğrenim gördüğüne ilişkin Denklik Belgesi, 2547 Sayılı Kanunun 3 ve 7/p maddeleri uyarınca, Yükseköğretim Yürütme Kurulunun 05.07.2012 tarihli kararıyla verilmiştir.
Prof.Dr.Şaban H. ÇALIŞ
Başkan Vekili
Seri № 080594

**◆ Azərbaycan Tibb Universitetinin məzunları təkcə ölkəmizdə deyil, yaxın və uzaq xaricdə də diplomlarını tanıtmaqla təmsil etdikləri ali tibbi təhsil ocağının şərəfini qoruyurlar.**



*Müalicə işi fakültəsini 2008-ci ildə bitirən iranlı gənc Paria Assadi Asadollah qızı da belə məzunlarımızdan biridir. Türkiyə Cümhuriyyətində imtahan verərək diplomunu təsdiqlədən Paria Assadi əsas məqdədinə çatmaqda israrlıdır. O, seçdiyi mama-ginekologiya ixtisasına yiyələnib çox sevdiyi Bakıya peşəkar mütəxəssis kimi qayıdacağını deyir.*

## Etibarsız sayılır

II müalicə profilaktika fakültəsinin VI kurs, 290[c] qrup tələbəsi Qurbanova Nəzrin Qüdrət qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

ATU-nun ümumi cərrahiyyə kafedrasının rezidenti Əmiraslanlı Bəxtiyar Ramazan oğluna məxsus rezident vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Türkiyə Cümhuriyyəti Anadolu Universiteti tərəfindən açıqöğrətim fakültəsinin II kurs tələbəsi Cəbiyeva Şəbnəm Adil qızının adına verilmiş 07201257152 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Təbrik




***Zəhra və Nərmin balanı ad günləri münasibətilə ataları Seyfəddin, anaları Şəlalə, babaları, nənələri, əmiləri, dayıları, bibiləri ürəkdən təbrik edir, həyatda xoşbəxt böyümələrini arzulayırlar!***

***Zəhra bala gözümüzün nurudu,***
***Evimizin sərvətidi, varıdı.***
***Sevinirik onun iki yaşıdı,***
***Bu ad günün mübarəkdi, mübarək!***

***Nərmin bala, hər uğurun var olsun,***
***Hər işində tale sənə yar olsun.***
***Diplom aldın, qoy hamıya car olsun,***
***8 yaşın mübarəkdi, mübarək!***

# Azərbaycanda ingilis dilində nəşr edilən ilk "Məhkəmə təbabəti" kitabı

**◆ Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu dövlət quruculuğu siyasəti nəticəsində bütün sahələrdə olduğu kimi hüquq və tibbdə də böyük inkişaf olub. Məhkəmə təbabəti bu böyük elm sahələrinin arasında olduğu üçün onun da bu inkişafda özünəməxsus xüsusi çəkisi vardır. Məhkəmə-tibbi ekspertiza hüquq-mühafizə orqanalarının fəaliyyəti zamanı əmələ gələn tibbi-bioloji xarakterli sualların öyrənilməsi və cavablandırılması ilə məşğul olan ekspertiza sahəsidir. Onun elmi bazasını isə məhkəmə təbabəti elmi təşkil edir. Odur ki, hüquq və tibb sərhədində yerləşən bu vacib və özünəməxsus elm sahəsinin yaxşı mənimsənilməsi həm tibb, həm də hüquq fakültələrinin tələbələri üçün vacibdir.**




Məhkəmə təbabəti fənni üzrə Azərbaycan və rus dilində ədəbiyyat olsa da, xarici dildə ədəbiyyata ölkəmizdə böyük bir tələbat vardır. Tələbat ondan irəli gəlir ki, son illər Azərbaycanın ali hüquq və tibb təhsil ocaqlarında onlarla xarici ölkələrdən gəlmiş yüzlərlə tələbə ingilis dilində təhsil almalarına baxmayaraq universitetlərimizin onları ingilis dilli dərsliklərlə təmin etməkdə çətinlikləri vardır. Bu nöqteyi nəzərdən ATU-nun məhkəmə təbabəti kafedrasının professoru, tibb elmləri doktoru Vüqar Məmmədovun 536 səhifədən ibarət ingilis dilində yazdığı "Forensic medicine" («Məhkəmə təbabəti») dərsliyi ölkəmizin, Azərbaycan təhsil sisteminin və Azərbaycan alimlərinin əcnəbi tələbələr qarşısında imicinin yüksəlməsinə xidmət edir. Bu kitab həmçinin bu mövzu ilə ingilis dilində məşğul olmaq arzusunda olan yerli tələbələr, doktorantlar və mütəxəssislər üçün həmin dildə yazılıb.

Doqquz fəsildən ibarət dərslik məhkəmə təbabəti sahəsində ingilis dilində tərtib olunmuş vacib tədris vəsaitidir, böyük praktiki və tətbiqi əhəmiyyətə malikdir, tədris prosesi zamanı böyük ehtiyac tələb olunan kitabdır. O çox sadə dildə, strukturlaşdırılmış şəkildə yazıldığı üçün oxucu üçün onu oxumaq maraqlı olacaq. Hər fəsildə məhkəmə təbabətinin bir sahəsi (məhkəmə-tibbi tanatologiya, travmatologiya, toksikologiya, identifikasiya və.s) geniş şəkildə əks olunur. Bütün bu fəsillər, tələbələrin informasiyanı asanlıqla başa düşmələrini asanlaşdıran bir yolla təşkil olunmuşdur. Bu kitab Azərbaycanlı alim tərəfindən İngilis dilində yazdığı məhkəmə təbabəti üzrə ilk və yeganə kitabdır.

Kitab üçün xarici mütəxəssis və alimlər də daxil olmaqla ümumilikdə 11 müsbət rəy verilmişdir. Bunlar arasında Dünya Tibbi Hüquq Assosasiyasının eks-prezidenti, YUNESKO-nun Bioetika Kafedrasının rəhbəri, Hayfa Universitetinin (İsrail) Hüquq fakültəsinin professoru Amnon Karmi, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Məhkəmə təbabəti kafedrasının müdiri, akademik Y.İ.Piqolkin və ABŞ Məhkəmə Elmləri Akademiyasının eks-prezidenti, Amerika Tibbi Hüquq Assosiasiyasının İdarə Heyətinin rəhbəri professor S.Vextin rəylərini göstərmək olar. Bunlar hamısı dünya səviyyəli böyük alimlərdir. Hal-hazırda rus dilində olan məhkəmə-tibbi dərsliklərin əksəriyyəti akademik Pigolkinin rəhbərliyi altında nəşr olunur. Professor Siril H.Vext kitaba verilmiş rəydə yazır ki, son 50 ildə şəxsən 18000 autopsiya keçirmiş və 38000 məhkəmə-tibbi ekspertizaların məsləhətçisi olmuş, o cümlədən prezident Con F.Kennedinin, senator Robert F.Kennedinin, Elvis Preslinin, Maykl Ceksonun və bir sıra məşhur şəxslərin ölümü ilə əlaqədar, ingilis dilli dünyada ən məhşur və hər il yenidən nəşr olunan 5 cildli "Məhkəmə Elmləri" dərsliyinin müəllifidir və bu sahədə böyük təcrübəyə malik olduğundan professor V.Məmmədovun yazdığı dərsliyin vacibliyini, onun müasir üslubda yazıldığını, məhkəmə təbabəti üzrə ixtisaslaşan insanlar üçün, hüquq və tibb fakültələrinin tələbələri üçün yüksək dərəcədə faydalı olmasını təsdiq edə bilər. Amerikalı mütəxəssis qeyd etdiyi kimi, həm Böyük Britaniyada, həm də ABŞ-da məhkəmə təbabəti və cinayət prosesi- ədliyyəsi sahəsində zəruri hazırlıq və təcrübə keçmiş professor Vüqar Məmmədov bu mühüm ədəbi nailiyyətinə görə tərifə layiqdir. Professor Vextin rəyi tam şəkildə kitabda verilmişdir.

**Z.MƏMMƏDOV,**
*dosent*

## Allah rəhmət eləsin!

Mühasibatlıq şöbəsinin əməkdaşları və "Təbib" qəzetinin kollektivi baş mühasib Azər Əşrəfova atası

**Becan Əşrəfovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya, operativ cərrahlıq və topoqrafik anatomiya, tibbi fizika və informatika, uşaq cərrahiyyəsi, tibbi biologiya və genetika, biofiziki və bioüzvi kimya, ümumi gigiyena və ekologiya , ümumi və toksikoloji kimya, ictimai sağlamlıq və səhiyyənin təşkili kafedralarının əməkdaşları və ETM- in kollektivi universitetin elmi işlər üzrə prorektoru, millət vəkili, professor Rafiq Məmmədhəsənova qardaşı

**Əziz müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya, biofiziki və bioüzvi kimya, operativ cərrahlıq və topoqrafik anatomiya, tibbi biologiya və genetika, uşaq cərrahiyyəsi, ümumi və toksikoloji kimya, tibbi fizika və informatika, ictimai sağlamlıq və səhiyyənin təşkili kafedralarının əməkdaşları stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayevə qardaşı oğlu

**Rövşən Qarayevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya, biofiziki və bioüzvi kimya, tibbi fizika və informatika kafedralarının əməkdaşları mikrobiologiya və immunologiya kafedrasının professoru Mehman Əliyevə qardaşı

**Akif müəllimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları Payız xanıma qardaşı

**Çərkəz bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya, tibbi biologiya və genetika, biofiziki və bioüzvi kimya, ümumi və toksikoloji kimya kafedralarının əməkdaşları yoluxucu xəstəliklər kafedrasının müdiri, akademik Namiq Əliyevə nəvəsi

**Tamerlanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM- in kollektivi iş yoldaşları Nərgiz Süleymanovaya əzizi

**Allahverdiyev Ziyadxan Oruc oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Cəbrayıl Cəbrayılova əzizi

**Maarifə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının əməkdaşları iş yoldaşları Simin xanıma bacısı

**Süreyya xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları Münəvvər xanıma əzizi

**Araz bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq cərrahiyyəsi kafedrasının əməkdaşları kafedranın baş laborantı Əbsəddin Məmmədova atası

**Əsgər Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları kafedranın laborantı Aizər Əhmədovaya qardaşı

**Məcnunun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti

**Tamella xanımın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın laborantı Elmira xanıma bacısı

**Gülşən xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 975